AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№390/8** **16 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Auditorlar Palatasının
Fəxri üzvü statusunun verilməsi barədə

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 nömrəli "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq, Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan şəxslər barədə Auditorlar Palatasının icraçı direktoru (S.Gülməmmədov) tərəfindən hazırlanmış təklifi müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan aşağıdakı şəxslərə "Auditorlar Palatasının Fəxri üzvü" statusu verilsin:

- Əlibala Səttar oğlu Məhərrəmzadə - Azərbaycan Respublikası Milli Məclisinin deputatı;
- Hayrettin Kurt – Türkiyə Respublikası İctimai Nəzarət, Mühasibat və Audit Standartları Qurumunun (KGK) vitse-prezidenti;
- Xen Şrayber - İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun prezidenti;
- Kəmalə Həsən qızı Nuriyeva – "Paşa Holding" MMC-nin və "GP Cotton Hollding" MMC-nin Audit Komitələrinin sədri;
- Muxtar Nadir oğlu Səttarov - Azərbaycan Respublikası Auditorlar Palatasının sabiq üzvü;
- Muhammed Samiullah Siddiqui - Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti;
- Sandra Vilcane - Latviya Sertifikatlaşdırılmış Auditorlar Assosiasiyasının (LACA) sabiq prezidenti, andlı auditor, "REVIDENTS UN GRAMATVEDIS" MMC-nin təsisçisi və baş icraçı direktoru;
- Yaşar Əzim-Ağa oğlu Məmmədov - Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun Monetar və fiskal tənzimləmə problemləri şöbəsinin müdiri.

2. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) və Haqsız rəqabətə qarşı mübarizə, keyfiyyətə kənar nəzarət və beynəlxalq əlaqələr idarəsinə (A.Bayramova) tapşırılsın ki, iki həftə müddətində "Auditorlar Palatasının fəxri üzvü" statusu verilmiş şəxslərə bu qərar barədə məlumatın hazırlanıb göndərilməsi təmin edilsin.

3. Auditorlar Palatasının Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsin.

4. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev) və Auditin transformasiyası və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bir ay müddətində bu qərarın mətninin və "Auditorlar Palatasının Fəxri üzvü" statusu verilmiş şəxslər barədə müvafiq məlumatların azərbaycan və ingilis dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**